## Milli Məclisin iclasında

# Hərbi xidmətə çağırışdan möhlət hüququ magistr və doktorantlara da şamil ediləcək

İyunun 14-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra 28 məsələdən ibarət gündəliyin müzakirəsinə başlanıldı.

"Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edən Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirdi ki, layihənin ikinci oxunuşda müzakirəsi zamanı səsləndirilən irad və təkliflər işçi qrupu tərəfindən diqqətlə araşdırılıb, bəziləri layihədə nəzərə alınıb. Bu qanunun tətbiqi aqrar bölmədə islahatların yeni mərhələsinə təkan verəcək. Kənd təsərrüfatında məhsul istehsalının səmərəliliyi və rəqabətqabiliyyətlilik yüksələcək, istehsalçıların gəliri artacaq. Deputatlar qanunun vacibliyini qeyd etdilər və layihə səsə qoyularaq qəbul edildi.

Sonra Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli üçüncü oxunuşda müzakirəyə çıxarılmış "Elm haqqında" qanun layihəsi barədə ətraflı məlumat verdi. Deputatların öncəki müzakirələrdə çox dəyərli təkliflər səsləndirdiyini, nəticədə ikinci oxunuşdan sonra sənədin daha da təkmilləşdiyini vurğuladı. Qeyd etdi ki, bu sənəd ölkədə elmin inkişafına ciddi stimul verəcək.

Müzakirə zamanı qanun layihəsinin mükəmməl hazırlandığı, dövlətçiliyə və tərəqqiyə xidmət edəcəyi vurğulandı. Beləliklə, "Elm haqqında" qanun layihəsi də üçüncü oxunuşda səsə qoyularaq qəbul olundu.

İclasda İran İslam Respublikası ilə əməkdaşlığa dair beş saziş də təsdiqləndi. Bunlar "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və təsirinin azaldılması sahəsində əməkdaşlıq haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında" sazişlər və "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında elektrik enerjisi satışı haqqında",





"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" Çərçivə sazişləri idi.

Deputatlar Zahid Oruc, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Siyavuş Novruzov və Qənirə Paşayeva bildirdilər ki, sözügedən sazişlərin hər biri Azərbaycanın dövlət maraqlarına uyğundur, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə xidmət edəcək. Layihələr ayrı-ayrılıqda səsə qoyularaq təsdiq edildi.

İclasda "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumu da təsdiqləndi.

Sonra Milli Məclisin Sədr müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov 8 maddədən ibarət "Azərbaycan Respublikasında Muradxanlı, Cəfərli və Zərdab neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Zenit Aran Oil Company Limited və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsini ətraflı şərh etdi. Deputatlar sənədə müsbət münasibət bildirdilər.

Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov isə "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişikliklər edilməsi barədə məsələni təqdim etdi. Bildirdi ki, hərbi xidmətə çağırışdan möhlət hüququ indiyədək ancaq bakalavr pilləsində təhsil alanlara verilirdi. Qanunun 21-ci maddəsinə edilən dəyişikliyə görə, bundan sonra həmin möhlət hüququ magistratura və doktorantura səviyyələrinə də şamil olunacaq. Həmçinin xarici ölkələrdə əyani təhsilalma formasında təhsil alanlara ali təhsil pilləsinin bakalavr, magistratura və doktorantura səviyyələrində, tibb təhsili üçün ali baza tibb təhsili və rezidentura (internatura) təhsil alanlara müvafiq təhsilini bitirənədək çağırışdan möhlət hüququ veriləcək.

Müzakirə zamanı Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli bu mütərəqqi dəyişikliyə görə ölkənin elmi və təhsil ictimaiyyəti adından Azərbaycan Prezidentinə minnətdarlıq etdi. Deputatlar bu məsələyə müsbət münasibət bildirdilər. Qanun layihəsi qəbul olundu.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin viza prosedurunun sadələşdirilməsi ilə bağlı şərhi dinlənildikdən sonra Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurunun sadələşdirilməsi, elektron viza sisteminin yaradılması məqsədi ilə Miqrasiya Məcəlləsində edilən dəyişiklik də səsvermə yolu ilə qəbul olundu.

Sonra Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi barədə" layihəni təqdim etdi. Bildirdi ki, bu düzəlişlər ayrı-ayrı qurumlarla vətəndaşlar arasında münasibətlərin daha səmərəli qurulmasına və şəffaflığın təmin olunmasına xidmət edəcək. Layihələrə görə, "Vətəndaşların müraciətləri haqqında" qanunun tətbiqi ilə əlaqədar "Ətraf mühitə dair informasiya almaq haqqında" qanunun 2-ci maddəsində, "İnformasiya əldə etmək haqqında" qanunun 4.2.3-cü maddəsində, "İctimai iştirakçılıq haqqında" qanunun 11.2-ci maddəsində "vətəndaşların müraciətlərinə baxılması qaydası" sözləri "vətəndaşların müraciətləri" ifadəsi ilə əvəz edilir. Layihə səsə qoyuldu və qəbul edildi.

"Vətəndaşların müraciətləri haqqında" 2015-ci il 30 sentyabr tarixli qanunun tətbiqi ilə əlaqədar olaraq Milli Məclis qanunvericiliyin uyğunlaşdırılması məqsədi ilə İnzibati Xətalar Məcəlləsinə 594-1-ci maddənin əlavə olunmasını, "Hərbi qulluqçuların statusu haqqında" və "Prokurorluq haqqında" qanunlara redaktə xarakterli dəyişiklikləri təsdiqlədi.

Gündəlikdəki növbəti qanun layihələrinin şərhində bildirildi ki, İnzibati Xətalar Məcəlləsinin 449-cu maddəsinin tələblərindən irəli gələrək ekoloji təmiz kənd təsərrüfatı, mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi, toxumçuluq, çayçılıq, taxıl haqqında qanunlarda dəyişiklik edilməsi zərurəti meydana gəlib. Səsvermə zamanı deputatlar qanunvericiliyin uyğunlaşdırılması baxımından həmin dəyişiklikləri də məqbul saydılar.

İclasda qeyd olundu ki, "Fitosanitar nəzarəti haqqında" qanunda edilən redaktə xarakterli dəyişikliklər bu qanunun "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", habelə "Normativ hüquqi aktlar haqqında" qanuna uyğunlaşdırılması məqsədi daşıyır. Layihə səsə qoyularaq qəbul edildi.

Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi ki, əcnəbilərin turizm məqsədilə Azərbaycana gəlməsini asanlaşdırmaq, ölkəmizin ərazisini tranzit daşımaları üçün əlverişli etmək və xarici ölkə vətəndaşlarının tranzit nöqtəsi kimi Azərbaycanı seçməkdə marağını gücləndirmək üçün "Dövlət rüsumu haqqında" qanunun 16.1.6-cı maddəsində nəzərdə tutulan rüsum dərəcəsi 50 dollardan 20 dollara endirilir. Qanun layihəsi qəbul edildi.

Sonra Ziyad Səmədzadə bildirdi ki, Vergi Məcəlləsinin 22.2-ci maddəsində aparılan dəyişikliyə görə, vergi orqanlarının büdcədənkənar fondu bu orqanlar tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 50 faizi hesabına formalaşacaq. İndiyədək həmin məbləğ 25 faiz nəzərdə tutulurdu. Məcəlləyə edilən dəyişiklik vergi orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi və maddi həvəsləndirilməsi üçündür. Bu qanun layihəsi səsvermədən sonra qəbul edildi.

Deputatlar qanunvericiliyin uyğunlaşdırılması baxımından Mülki Prosessual Məcəllənin 305 və 306-cı maddələrində dəyişikliklər edilməsini də məqsədəuyğun saydılar.

İclasda komitə sədri Əli Hüseynli məlumat verdi ki, beynəlxalq təcrübəyə istinadən ölkəmizdə prokurorluq işçilərinin nizam-intizam tədbirlərini gücləndirmək məqsədilə "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunlarda prokurorluq işçisinin məsuliyyətinə və intizam məsuliyyətinin növlərinə dair maddələrdə dəyişikliklər edilərək "vəzifələrini layiqincə yerinə yetirmədiyinə", həmçinin "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi"nin tələblərinə əməl etmədiyinə" sözləri artırılır. Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Gündəlikdəki növbəti qanun layihələrini təqdim edən Ə.Hüseynli bildirdi ki, "Notariat haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlara təklif olunan dəyişikliklər notariat kontorları olmayan inzibati ərazi vahidlərində rast gəlinən (kənd yerlərində) çətinliyi aradan qaldırmaq üçündür. Belə ki, həmin ərazilərdə yaşayan sakinlər məşğul olduqları kənd təsərrüfatı fəaliyyəti, onlara mənsub torpaq sahələri ilə bağlı notarial xidmətlərdən istifadə edə bilmirlər. Yeni qanunlar vətəndaşlara bu sahədə lazımi şəraitin yaradılmasına xidmət edəcək. Sahəsi beş hektardan çox olmayan və xüsusi mülkiyyətdə olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin bir ilədək icarəyə və ya istifadəyə verilməsinə dair müqaviləni, habelə həmin torpaq sahələrinin iki ildən artıq olmayan müddətə icarəyə və istifadəyə verilməsinə dair etibarnaməni yerli icra hakimiyyəti orqanlarında təsdiqlətdirə biləcəklər. Hər iki qanun layihəsi qəbul edildi.

Bununla da Milli Məclisin növbədənkənar sessiyasının birinci iclası başa çatdı.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***